# Zəfərin işığında, demokratiya yolunda, dövlətçilik uğrunda

*Bu gün düşüncələrin, fikirlərin, duyğuların qalası hesab edilən sözün bayramıdır. Bir kəlmə xoş söz könüllərdə taxt qurar. Ağır döyüşlərdə sözün kəsəri də mühüm rol oynayır, söz də var ki, ovxarlı qılınca bənzəyir, məqamında deyiləndə yağıların bəd niyyətlərini parçalayır. Sözdən abidə ucaldanlar, onun keşiyində dayanan mərd insanlar olub, sözün çəkisini, qiymətini yaxşı biliblər.*

Milli mətbuatımızın banisi, söz və qələm cəfakeşi Həsən bəy Zərdabi XIX əsrin sonlarına yaxın qərara gəldi ki, insanları cəhalətdən, dini xürafatdan, avamlıqdan, digər mənfi xüsusiyyətlərdən xilas etmək üçün onları sözün gücü ilə haqq yoluna çıxarsın, milləti irəli aparsın. Bu missiyanı yerinə yetirmək üçün ictimai tribuna lazım idi. Həsən bəy vəfalı ömür-gün yoldaşı Hənifə xanımla qəzet açmağa nail oldu. 1875-ci il iyulun 22-də dövrün tanınmış ziyalısı Həsən bəy Zərdabi böyük çətinliklərdən sonra Bakıda ana dilində "Əkinçi" qəzetinin nəşr edilməsi üçün icazə ala bildi və qəzetin ilk nömrəsi çapdan çıxdı. "Əkinçi"nin nəşri bütün Qafqazda əks-səda doğurdu. 1875-1877-ci illər ərzində fəaliyyət göstərmiş qəzetin 56 nömrəsi işıq üzü gördü. "Əkinçi" qəzeti xalqımızın milli oyanışında, həmrəyliyin möhkəmlənməsində, savadsızılığın ləğv edilməsində, əkinçiliyin təbliğində böyük rol oynadı.

Qəzet xalqımızın milli ruhunun formalaşmasında yeni mərhələnin başlanğıcı oldu. Əsasən maarifçilik missiyasını yerinə yetirən "Əkinçi" az müddətdə həm ziyalı təbəqə, həm də sadə insanlar arasında məşhurlaşdı. Milli oyanışın yeni mərhələsinin təmsilçisi kimi "Əkinçi" qəzetinin başlanğıcını qoyduğu yol neçə-neçə mətbu və ədəbi məktəbin formalaşmasına təkan verdi, xalqın maariflənməsinə, milli-azadlıq hərəkatının güclənməsinə təsir göstərdi. Tarixin müxtəlif ictimai-siyasi mərhələlərində formalaşmış Azərbaycan mətbuatı xalqa, cəmiyyətə, insanlara xidmət borcunu şərəflə yerinə yetirdi. Mətbuat tarixində qeyd olunur ki, mütərəqqi ideyaların carçısı olan "Əkinçi" elm, maarif və mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafına, yeni tipli məktəblərin yaradılmasının zəruriliyinə aid materiallar dərc edirdi. Qəzetin ən böyük uğurları ilk növbədə onun mətbu dilinin xalq dilinə yaxın, sadə və səlis olması idi. Xalqın elmi və mədəni cəhətdən tərəqqisinə çalışan "Əkinçi" qadın azadlığı və qadınların təhsili ideyasını da təbliğ edirdi. "Əkinçi" qəzetində dövrün görkəmli alim və ziyalılarının - Nəcəf bəy Vəzirovun, Əsgər ağa Goraninin, Məhəmmədtağı Əlizadə Şirvaninin, Heydərinin göndərdikləri məktublar, Seyid Əzim Şirvaninin şeirləri və Mirzə Fətəli Axundzadənin məqalələri dərc olunurdu. Qəzet dini mövhumata, xurafata və cəhalətə qarşı kəskin çıxışlar edirdi. "Əkinçi" Azərbaycanda, Gürcüstanda, Dağıstanda, Özbəkistan və başqa yerlərdə yayılırdı. Məhz buna görə də qəzetin mütərəqqi ideyaları çar Rusiyasının hakim dairələrini ciddi narahat edirdi. 1877-ci ilin 29 sentyabr tarixinə qədər "Əkinçi" ayda iki dəfə 300-400 tirajla nəşr edilirdi. Çar Rusiyası qəzetin insanların maariflənməsində, ictimai-siyasi proseslərə daha yaxından bələd olmasındakı rolundan çəkinməyə başladı və qəzetin nəşrini dayandırdı. "Əkinçi" qəzeti bağlandıqdan sonra müxtəlif səylər göstərilməsinə baxmayaraq bir müddət Azərbaycan dilində mətbu orqan çap olunmadı.

Nəhayət, Azərbaycan dilində çıxan ilk qəzet Məmmədağa Şaxtaxtinskinin 1903-cü ildə Tiflisdə nəşr etdirdiyi ictimai-siyasi, iqtisadi, elmi, ədəbi "Şərqi-rus" qəzeti oldu. Qəzetin Azərbaycanda ictimai fikir tarixinin inkişafında xüsusi yeri olub. Qəzetdə dünyəvi elmlər, ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı. "Şərqi-rus" qəzeti Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Ömər Faiq Nemənzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əli Nəzmi kimi böyük yazıçı və maarifçiləri öz ətrafında birləşdirib. Bundan sonra, 1906-cı il aprelin 7-də Cəlil Məmmədquluzadənin təşəbbüsü, redaktorluğu və naşirliyi ilə Tiflisdə həftəlik illüstrasiyalı ilk Azərbaycan satirik jurnalı - "Molla Nəsrəddin" nəşrə başlayıb. 1918-ci ilədək Tiflisdə nəşr olunan jurnal 1921-ci ildə Təbrizdə, 1921-1931-ci illərdə Bakıda çap olunub. Həmin dövrdə Azərbaycan ziyalılarının iştirakı ilə nəşr olunan "Ziya", "Kəşkül", "Kaspi", "Həyat", "Füyuzat", "Təzə həyat", "Şəlalə", "Açıq söz" və "Dirilik" kimi qəzet və jurnalların da mətbuatımızın inkişafında böyük rolu olub. "Əkinçi" qəzeti ilə əsası qoyulmuş Azərbaycan milli mətbuatı bütün dövrlərdə həqiqət carçısı olub, cəmiyyəti düşündürən problemləri, dövrün qabaqcıl ideyalarını və mütərəqqi fikirlərini əks etdib, xalqın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynayıb. Azərbaycan mətbuatı xalqımızın azadlıq arzularının gerçəkləşməsinə, mənəvi dəyərlərinin qorunmasına, mədəniyyətin tərəqqisinə, qabaqcıl ictimai fikrin, milli şüurun formalaşmasına böyük töhfələr verib. Mürəkkəb, lakin şərəfli inkişaf yolu keçmiş milli mətbuatımız həmişə xalqımızın şanlı tarixinin güzgüsü olub. Milli mətbuat tariximizin səhifələri çar Rusiyası imperiyasının, sonra sovetlər birliyinin basqısı altında qalsa da ideyasından, məqsədindən geri çəkilməyib.



1918-ci ilin mayın 28-də Şərqin ilk demokratik respublikasının - Azərbaycan Xalq Cümhuriyyətinin qurulması XX əsrdə xalqımızın həyatında yeni bir mərhələ, tarixi hadisə olmuşdu. Azərbaycan Xalq Cümhuriyyəti cəmi iyirmi üç ay yaşasa da, onun mətbuatın fəaliyyəti üçün yaratdığı demokratik mühit, hər kəsin məfkurə və özünüifadə azadlığının təmin edilməsi təcrübəsi tarixdə gözəl nümunə kimi qalmışdır. Həmin dövrdə söz və mətbuat azadlığını təsbit edən bir sıra hüquqi sənədlər qəbul edilmişdir. Xüsusilə də 1919-cu ilin oktyabr ayında qəbul olunmuş "Mətbuat haqqında nizamnamə" sosial və siyasi yönümündən asılı olmayaraq, bütün mətbu nəşrlərə demokratik şərait yaratmışdı. Cümhuriyyət süqut etdikdən sonra Azərbaycan bolşevik işğalı altına düşdü. Xalqın azadlıq arzuları şaxta vurmuş gül kimi soldu, milli, demokratik ruhlu mətbuat tətbiq edilən senzura nəticəsində başqa istiqamətə yönləndirildi. Sovet mətbuatı yarandığı ilk günlərdən başlayaraq bütün dövrlərdə, o cümlədən repressiya, İkinci Dünya müharibəsi və "soyuq müharibə" illərində yalnız təbliğat aləti olaraq qalmışdır. Həmin dövrdə ideoloji kursa uyğun olaraq qəzet və jurnalların şəbəkəsi genişlənmiş, ixtisaslaşmış mətbuat orqanları yaradılmış, teleradio jurnalistikası təşəkkül tapmışdır. Sovet hakimiyyəti dövründə Azərbaycan mətbuatı sosialist realizmi prinsipləri əsasında fəaliyyət göstərsə də ideoloji buxovlara baxmayaraq mətbuat orqanlarının milli özünüdərkin formalaşmasında böyük rolu olmuşdur. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra mətbuatın inkişafı daha çox partiyalı mövqe ilə bağlı olmuşdur. Respublikanın "Kommunist" (ilk nömrəsi 1919-cu ildə çıxmışdır), "Bakinskiy raboçiy" (1906-ci ildən çıxır), "Vışka" (1928-ci ildən çıxır), "Azərbaycan gəncləri", "Molodyoj Azerbaydjana" (ilk nömrələri 1919-cu ildə çıxmışdır), "Bakı", "Baku" (1958-ci ildən çıxır), "Ədəbiyyat və incəsənət" (1934-cü ildən çıxır) adlı mətbuat orqanlarında kommunist ideologiyası təbliğ olunurdu. Lakin həqiqət naminə qeyd etməliyik ki, adı xalqımızın dil, ədəbiyyat və mədəniyyətinə həsr etdiyi, azərbaycançılıq ideyasına xidmət edən yazılar totalitar rejim şəraitində belə Azərbaycan jurnalistikasının mövqeyini nümayiş etdirirdi. 70 illik dirənişdən sonra, XX əsrin 80-ci illərinin sonunda Azərbaycanda başlanmış siyasi oyanış, Ermənistanın şovinist və təcavüzkar siyasətinə etiraz ümumxalq hərəkatına çevrildi, Azadlıq meydanında günlərlə mitinqlər keçirildi, xalqın görkəmli ziyalıları həmin mitinqlərdə milli oyanışın carçılarına çevrildilər. Ölkənin ən ağır günlərində meydana çıxan "Azərbaycan", "Aydınlıq", "Qarabağ" "Yeni fikir", "Səhər", "Odlar Yurdu", "Gənclik", "Xəzər" kimi qəzet və jurnallar qadağaları sındırmaqla, cəmiyyətin obyektiv informasiya təminatını uğurla, obyektivliklə həyata keçirdilər.

150 yaşlı Azərbaycan mətbuatı çətin, keşməkeşli, mübariz və şərəfli yol keçib. Mətbuat tarixinin xronologiyasına nəzər salanda aydın olur ki, milli mətbuat çar Rusiyası, sovetlər birliyi dövründə ana dilini, milliliyi və bəşəriliyi qoruyub saxlaya bilib. Azərbaycan öz dövlət müstəqiliyinə qovuşandan sonra milli mətbuatın qarşısında dayanan bütün maneələr dəf edilib, inkişaf dövrü başlayıb. Xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev Azərbaycanın müstəqillik tarixinin əsasını qoydu. Heydər Əliyevin siyasi iradəsi nəticəsində plüralizmi, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələr aradan qaldırıldı, Azərbaycan Prezidentinin 6 avqust 1998-ci il tarixli Fərmanı ilə uzun illər Azərbaycan mətbuatına buxov olan senzura ləğv edildi. Ümummilli lider Heydər Əliyev demişdir: "Mətbuat demokratiyanı dərinləşdirən, siyasi inkişafa təkan verən qüdrətli vasitədir". Müasir Azərbaycanın memarı və qurucusu ulu öndər Heydər Əliyev hər zaman mətbuatın cəmiyyətə təsir gücünü yüksək qiymətləndirib, mətbuat və söz azadlığı, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirib. Prezident Heydər Əliyevin fərman və sərəncamları ilə mətbuatın maddi-texniki bazasının, iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin azad fəaliyyəti üçün əlverişli şəraitin təmin edilməsi məqsədilə çoxsaylı tədbirlər həyata keçirilib, mətbuat-dövlət münasibətlərində mütərəqqi ənənələrin əsası qoyulub. Hazırda Azərbaycanda yüzlərlə mətbuat orqanı, informasiya agentliyi, teleradio şirkətləri, sürətlə inkişaf edən internet resursları vətəndaş cəmiyyəti quruculuğunun fəal iştirakçısına çevrilərək xalqın informasiyaya olan ehtiyacının ödənilməsində əhəmiyyətli rol oynayır. Ulu öndər tərəfindən mətbuatın inkişafına göstərilən dövlət qayğısı bu gün dövlətimizin başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan jurnalistikasında söz, fikir azadlığının yaradılmasını, demokratiyanın inkişafını özündə əks etdirən bu siyasət nəticəsində Azərbaycan dünyada azad mətbuata, fikir və söz azadlığına, insan hüquqlarına hörmət edən ölkə kimi tanınır. Qalib Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində Müzəffər Azərbaycan Ordusu 30 ilə yaxın Qarabağın üzərinə qara bulud kimi çökmüş xəbis niyyətli, işğalçı, qəsbkar, yadelli düşməni əzərək məhv etdi. 44 günlük Vətən müharibəsində qazandığımız qalibiyyət media təmsilçilərinə impuls verdi, jurnalistlər döyüş meydanından birbaşa reportajlar yaymışlar. Bütün informasiya vasitələri müharibənin gedişini, döyüşçülərimizin qəhrəmanlığını, ordumuzun qalibiyyətini operativ şəkildə işıqlandırdılar. Qlobal güclərin fitvası ilə sanki tilsimə salınmış, qırx yerdən düyün vurulmuş, kilidə salınmış Qarabağ problemini həll edən, işğala və hərbi təcavüzə son qoyan, Azərbaycanın yaralanmış xəritəsini bütövləşdirən, təcavüzkarları torpaqlarımızdan qovan, beş il bundan əvvəl üç cəbhədə, ordusu savaş meydanında, özü diplomatiya və informasiya cəbhəsində döyüşən, dəmir iradəsi, qətiyyəti, Vətən və xalq məhəbbəti, liderlik xarakteri ilə 30 illik işğala son qoyan, haqqı, ədaləti bərpa edən, milli qürurumuzu, şərəfimizi ucaldan Qalib Ali Baş Komandan İlham Əliyev dövranın nəbzini və mənzərəsini dəyişməyə nail oldu. Bu ilin əvvəlində Prezident İlham Əliyev jurnalistlərə müsahibəsində Azərbaycan mətbuatında yeni dövrün başlandığını elan etdi və bildirdi ki, jurnalist əməyi böyük peşəkarlıq tələb edir. Bu gün Azərbaycan mətbuatı qarşıda duran yeni çağırışlara adekvat olmalıdır.

I Şuşa Qlobal Media Forumu 2023-cü il iyulun 21-23-də keçirilib. "4-cü Sənaye inqilabı dövründə yeni media" mövzusunda I Media Forumunun açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak edib. 2024-cü il iyulun 20-22-də "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda II Şuşa Qlobal Media Forumu keçirilib. Forum çərçivəsində "Təsirin qiymətləndirilməsi: Dezinformasiyanın əhatə dairəsini müəyyənləşdirmək", "Dezinformasiyaya qarşı daha davamlı cəmiyyət qurmaq üçün siyasət və təşəbbüslər", "Süni intellektin reallığa, mediaya və dezinformasiyaya təsiri: Media savadlılığının təşviqi" və "İqlim hərəkatı və media" mövzularında dörd panel sessiya təşkil olunub. Panel sessiyalarda müxtəlif ölkələrdən olan rəsmilər, media və vətəndaş cəmiyyəti, dövlət və biznes nümayəndələri, beynəlxalq təşkilatların təmsilçiləri və media ekspertləri ətraflı fikir və təcrübə mübadiləsi aparıblar. Bununla yanaşı, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar həyata keçirilən tədbirlər və hazırlıq işləri, ölkə səviyyəsində iqlim dəyişikliyinin təsirləri ilə aparılan mübarizə, azad edilmiş ərazilərdə bərpa və yenidənqurma prosesində sərgilənən dayanıqlı yanaşma barədə məlumat verilib. Qeyd edək ki, Qlobal Media Forumlarının keçirilməsi çox yaxşı və effektiv ənənəyə çevrilib. İyulun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü keçirilib. Forum 52 ölkədən 140 qonağı, 30-a yaxın informasiya agentliyinin və 80 media qurumunun nümayəndələrini bir araya gətirib. Builki Forum rəqəmsal keçidlər, süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi mövzusuna həsr olunub. Dünyanın müxtəlif guşələrindən gəlmiş media təmsilçilərinin suallarına ətraflı və dolğun cavab verən dövlətimizin başçısı çox incə məqamlara, kövrək duyğulara toxunaraq deyib: "Mənim üçün isə atamın vəsiyyətini yerinə yetirmək, eləcə də bu torpaqlardan didərgin düşən, ədalətin bu təntənəsini görmədən dünyadan köçənlərin vəsiyyətlərini yerinə yetirmək böyük şərəf və qürur mənbəyi idi. Mən son beş ildə bu qürur hissi ilə yaşayıram. İnşallah, mən və bütün Azərbaycan xalqı sona qədər bu hisslə yaşayacağıq". Bu gün Azərbaycan mediası dövlət maraqlarını qorumağa qadirdir. Azərbaycana qarşı əsassız ittihamları arqumentlərlə, ciddi təhlillə və faktlar əsasında ifşa etməkdə də böyük uğurlar əldə edib.

Zəfər dastanın işığında, dövlətçilik uğrunda, fikir, düşüncə qanadlarında yol gələn milli mətbuat usanmadan, yorulmadan haqqın, ədalətin, söz mülkünün keşiyində dayanır. Millətə, haqqa tapınan milli mətbuat tarixin bütün dönəmlərində, hətta basqı altında olduğu illərdə, senzuranın kəsakəs vaxtlarında əxlaqı, ədaləti, rasionallığı, milliliyi, obyektivliyi və sağlam düşüncəni təbliğ edib, xalqı maarifləndirib. Azərbaycan mediası həm Birinci, həm də İkinci Qarabağ müharibələrində üzərinə düşən vəzifəni layiqincə yerinə yetirib. Azərbaycan həqiqətlərinin təbliğini uğurla həyata keçirən mətbuatımızın 44 günlük Vətən müharibəsinin gedişində ölkəmizin düşmən təbliğatına qarşı informasiya mübarizəsində ləyaqətlə savaşdı. Azərbaycan mediası bu gün də dövlətimizin başçısı, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin səsləndirdiyi hər bir fikrin, hər bir bəyanatın, işğaldan azad edilmiş ərazilərimizdəki vəziyyət barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə çatdırılmasında fəal rol oynayır. Bu gün Azərbaycan mətbuatı müasir informasiya cəmiyyəti quruculuğunda, sosial ədalət və şəffaflığın təmin edilməsində, milli həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsində, demokratik özünüdərkin, siyasi mədəniyyətin inkişafında, milli-mənəvi və ümumbəşəri dəyərlərin qorunub saxlanması və təbliğində, tədris və maarifləndirmə sahəsində fəaliyyətini gücləndirir. Azərbaycan jurnalistikası peşəkarlıq, obyektivlik, qərəzsizlik, yüksək milli şüur və vətənpərvərlik prinsiplərinə dönmədən əməl etməli, söz və məlumat azadlığından sui-istifadənin qarşısı qətiyyətlə alınmalıdır.

Ölkəmizdə söz və mətbuat azadlığı tam təmin olunub. Hazırda respublikada çoxlu sayda müxtəlif qəzet və jurnallar nəşr olunur, internet qəzetçiliyi inkişaf edir, ən əsası isə müasir dövrdə informasiya texnologiyalarının inkişafı Azərbaycan mətbuatını qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevirib. Beş ilə yaxındır ki, Qarabağ və Şərqi Zəngəzurun bərpası və gələcək inkişafı üçün dövlət tərəfindən bütün zəruri tədbirlər həyata keçirilir. 2021-ci ilin əvvəllərindən Qarabağda və Şərqi Zəngəzurda başlanan işlərin xronologiyasına nəzər salanda yaxşı mənada adamı heyrət bürüyür, nəhəng infrastruktur layihələrin icra edilməsi əsl möcüzədir. Doğrudan da son illər böyük tarixi hadisələrin şahidi oluruq, qürur hissi ilə deyirik ki, bu gün Azərbaycan dünyada sürətlə və dinamik inkişaf edən dövlətlərdən biridir, ölkəmizin iqtisadi qüdrətinin artması, müstəqil siyasət yeritməsi, işğaldan azad edilən torpaqlarda aparılan geniş miqyaslı tikinti-quruculuq, sözün əsl mənasında hər birimizdə qanuni iftixar hissi yaradır. Bu tarixi proses Azərbaycan mətbuatında geniş şəkildə işıqlandırılır, Böyük Qayıdışdan reportajlar yayımlanır, məqalələr, zarisovkalar çap edilir. "Əkinçi"dən başlanan uzun bir yol indi "Respublika"nın səhifələrində də davam etdirilir, son 30 ilin tarixi hadisələrinin, Böyük Qayıdışın, inkişafın, beynəlxalq aləmdə qazanılan nüfuzun, dövlət başçısının həyata keçirdiyi qlobal miqyaslı tədbirlərin salnaməsi yaradılır. Söz mülkünün karvanı gələcəyə və tərəqqiyə doğru inamla irəliləyir.

**Salman ALIOĞLU,**
**"Respublika".**